# Heydər Əliyevin bədii obrazı teatr səhnəsində

**Ulu Öndər həmişə teatr sənətinə xüsusi məhəbbətlə yanaşmış, ömrünün sonuna kimi teatr sevgisinə sadiq qaldığını bu sahəyə göstərdiyi diqqət və qayğısı ilə sübut etmişdir. Ümummilli Lider tez-tez sənət ocaqlarına baş çəkir, teatrların maddi-texniki bazasının gücləndirilməsi, sənətkarların sosial vəziyyətlərinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları üçün tədbirlər görürdü.**




Bu gün Heydər Əliyev mövzusuna və onun obrazının səhnə təcəssümünə sənətkarlar tərəfindən böyük əhəmiyyət verilir. Səhnə xadimləri 2003-cü ildən başlayaraq, Azərbaycan teatrlarında görkəmli dövlət xadiminin həyat və siyasi fəaliyyətinin fenomenal cəhətlərini əks etdirən pyeslərin tamaşaya qoyulmasına xüsusi diqqət yetirirlər. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının rəhbərliyi 2003-cü ildə Əbülfəz Bərəkətin "Tufanda yanan çıraq" (rejissor B.Osmanov) əsərinə səhnə həyatı verməklə ilk dəfə bu missiyanı öz üzərinə götürmüşdür. 2004-cü ildə isə Aqşin Babayevin "Xilaskar" əsərini səhnəyə gətirən (rejissor F.Məhərrəmov) Sumqayıt Dövlət Dram Teatrı bu sıraya qoşulmuşdur. Ardınca - 2008-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" (rejissor K.Quliyev) əsəri ərsəyə gətirilmişdir. Yenə də C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı bu ənənəni davam etdirərək bir-birinin ardınca İftixarın "Qurtuluş dastanı" (rejissor O.Qurbanov-2013), "İşıqlı, nurlu sabah" (mənzum pyes, rejissor İ.Piriyev), "Qurtuluş" (rejissor İ.Piriyev), "Nurlu ömrün anları" (mənzum pyes, rejissor İ.Piriyev), Hidayətin "Burdan min atlı keçdi" (rejissor F.Məhərrəmov) əsərlərinə səhnə həyatı vermişdir.

Ümumiyyətlə, repertuarı ilə həmişə vətənpərvərlik ruhu aşılayan İrəvan Dövlət Azərbaycan Dram Teatrı milli məfkurəni, dövlətçilik ideyalarını təbliğ edən əsərlərə daha çox üstünlük verir. Teatrın A.Babayevin "Xilaskar" (rejissor O.Qurbanov) sənədli-publisistik səhnə əsərinə müraciəti də belə məqsəddən irəli gələn mövqe idi.

Heydər Əliyev fenomeni İrəvan teatrının kollektivi üçün sönməz ilham qaynağı və həyat eşqi, qüdrət mənbəyidir. Ulu Öndərin bədii obrazını dolğun təcəssüm etdirən səhnə əsərləri arasında görkəmli ədib Hidayətin "Burdan min atlı keçdi" pyesinin tamaşası da xüsusi yer tutur. Tamaşaçı sevgisi ilə əhatə olunan bu əsər teatr sənətimizin nailiyyəti kimi qiymətləndirilir.

İrəvan teatrı "Heydər Əliyev İli" münasibətilə Ulu Öndərin milli məfkurəmizə verdiyi sağlam ideologiyanın böyük uğurlarının təbliğini "Ulu Öndər Heydər Əliyev irsini öyrənirik" layihəsi çərçivəsində "Qurtuluş" və "Heydər Əliyev zirvəsi" devizi altında "Nurlu ömrün anları" tamaşasının nümayişi ilə həyata keçirir.

*Nərminə AĞAYEVA,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan. - 2023.- 23 iyun.- S.11.